# Yeniyetməlik yaşı dövründə deviant davranışın əsas xüsusiyyətləri və davranış pozuntularına təsir edən sosial-psixoloji amillər

**Rəna Qasımova**
*ADPU-nun "Ümumi psixologiya" kafedrasının müəllimi*
**E-mail:** rmnqasımova@gmail.com

**Rəyçilər:** dos. S.F. Şabanov
dos. M.S. Əliyev

**Açar sözlər:** deviant davranış, delikvent, anti-sosial, aqerssivlik
**Ключевые слова:** девиантное поведение, деликвентность, антисоциальный, агрессивность
**Key words:** deviant behavior, dexterity, anti-social, aggressiveness

Davranış pozuntusu müasir psixologiyanın önəmli əhəmiyyət kəsb edən problemlərindən biridir. Davranış pozuntularının səbəbi kimi çox zaman siyasi, sosial, iqtisadi və ekoloji qeyri-sabit cəmiyyət, ailə-məişət problemləri, davranış üzərində nəzarətin olmaması, valideynlərin həddindən artıq məşğul olması, boşanmaların çoxalması göstərilir.

Davranış pozuntusu olan uşaq və yeniyetmələrin narahatedici simptomları asosial, konfliktli və aqressiv davranışlarda, destruktiv hərəkətlərdə, təlimə marağın olmamasında və s. də özünü göstərir. Valideyn və müəllimlərin uğursuzluğu, valideynlərin öz övladlarına düzgün yanaşmamağın, onları düzgün tərbiyə etməməyin nəticəsi uşaq və yeniyetmələrin davranış pozuntusuna səbəb olur.

Ümumilikdə, uşaq və yeniyetmələrin davranış pozuntusunun əsasında sosial və psixoloji dezadaptasiyaya gətirib çıxaran aqressivlik və aqressivliyin müxtəlif formaları, eyni zamanda neqativizm durur. Aqressiv və neqativ davranışın kökündə isə psixoloji və sosial-psixoloji faktorlar dayanır. Psixoloji faktorlara: motivasiyası, emosional, iradi və mənəvi sferaların şəxsiyyət pozuntuları, sosial-psixoloji faktlara isə qeyri-sabit ailə tərbiyəsi aid edilir.

Davranış pozuntusu ilə əlaqədar V.T. Kondraşenko öz mülahizəsini irəli sürmüşdür. O, onları ətraf mühitində olan normal davranışlardan qaçma kimi müəyyən etmişdir. Bu, insaneların daxili aləminin oyanmasıdır.

Davranış pozuntusuna sağlam insanın davranışının kənarlaşması kimi baxıldığı halda o həm də psixi əsəb pozuntusunun deviant davranışı sayılır.

Deviant və ya kənara çıxan davranış – sosial-psixi davranışdır. Çünki onlar psixi-əsəbi xəstəlik hesab olunur. Bu situasiyada daxil olunan şəxsiyyətlərarası münasibətlərin kənarlaşmasıdır.

Psixoloji ədəbiyyatda deviant davranışın qeyri-patoloji və patoloji növlərini ayırd edirlər. Qeyri-patoloji deotasiya-sağlam insani davranışında olan psixi pozuntudur. Hər bir halda bu davranışa inkişafdan geri qalma və şəxsiyyətin qeyri-patoloji situasiyaları aiddir.

Deviant davranışın patoloji forması – bu anlayış psixoloji deviasiyanı şəxsiyyətin patologiyası ilə yaxınlaşdırır. Davranışın bu cür formaları uşaq və yeniyetmə psixiatriyasında daha çox rast gəlinir. Bura patoloji şəxsiyyət pozuntusu, patoloji psixogen, şəxsiyyət formalaşması, intellekt çatışmamazlığı və həmçinin də psixi inkişafın geriləməsi aid edilir.

Aydın məsələdir ki, davranış pozuntusunun ikinci qrupunun tibbi müayinəyə ehtiyacı var. Belə ki, bu situasiyada söhbət xəstəliyin kliniki göstəricisindən və onların psixi formalarından gedir.

Eyni zamanda tibbi və psixoloji ədəbiyyatlarda digər bölgülər də mövcuddur.

A.A. Aleksandrov pozuntuları 3 qrupa ayırır:

1) reaktiv şərtləşdirilmiş – başlıca olaraq psixotravmatik situasiyalardan irəli gələn (evdən qaçma və suisidlər); 2) patologiya ilə şərtlənmiş cəlb olunma (sadizm, qəddarlıq); 3) düzgün olmayan tərbiyənin nəticəsi kimi yaranan etikanın çox aşağı səviyyəsi.

A.Q. Ansbrumova, İ.Y. Lezlova uşaq və yeniyetmələrdən 4 tip davranış pozuntusunu ayırırlar: anti-sosial (anti-cəmiyyət), delikvent (qanuna qarşı), antidissiklikli və antoaqressiv.

Bölgülərin analizi onu göstərir ki, davranışın istiqaməti və xüsusiyyətlərindən asılı olmayaraq əksər yanaşmalarda aqressivlik davranış pozuntusunun əsas keyfiyyəti hesab olunur.

Davranış pozuntusu olan uşaqların narahatedici simptomları asosial, konfliktli və aqressiv davranışlarda, destruktiv hərəkətlərdə, təlimə marağın olmamasında və s. özünü göstərir. Müəllim və valideynlərin uyğunsuzluğu, valideynlərin öz övladlarına düzgün münasibət bəsləməməyin onları düzgün tərbiyə etməmyin nəticəsi uşaqların davranış pozuntusuna səbəb olur. Yeniyetmələrdə devinant davranışı yaradan səbəblərdən biri də ailədaxili münasibətlərdə aqressiv atmosferin olmasıdır.

Kanada psixoloqu Albert Bandura (1925-1988) hesab edir ki, aqressiya ailə üzvləri tərəfindən himayə edilən ən mühüm davranış modelidir. O, qeyd edir ki, uşaqlar daha çox o aqressiya modellərindən istifadə edirlər ki, valideynləri həmin davranış modelini başqalarına qarşı istifadə etmişlər.

Banduraya görə, uşaqlar aqressiv hərəkətlərə o hala başlayırlar ki, onların davranış modeli böyüklərin, xüsusilə ailə üzvlərinin zorakı hərəkətləri əsasında formalaşır. Uzun illər bu sahədə tədqiqatlar aparan Bandura aqressiya ilə mübarizə məqsədilə bildirmişdir ki, bu problemin diaqnostikası və müalicəsi uşaq vaxtı aparılmalıdır.

İqor Kon qeyd etmişdir: "Yeniyetmə və gənclərin davranışında elə bir sosial və ya psixoloji sahə yoxdur ki, keçmişdə və ya indiki zamanda ailənin təsirinə məruz qalmasın".

Valideynlər uşaqlarının qidalanmasını yetərincə təmin etdikləri, yaxşıca geyindirdikləri, mədəni əyləncələrini həyata keçirdikləri halda, onlarla ünsiyyətdə az olurlar. Nəticədə də bir çox uşaq və yeniyetmələrdə tənhalıq hissi, arsızlıq, həddindən artıq aclıq (bu çox qorxuludur) və s. neqativ xüsusiyyətlər inkişaf edir və insani dəyərlərə hörmət azalmağa başlayır.

Nəsrəddin Tusi "Əxlaqi-Nasiri" əsərində yeniyetmələrin tərbiyəsilə bağlı maraqlı fikirlər söyləmiş və onların mənəvi baxımdan formalaşmasında ünsiyyətdə olduğu insanların rolunu qiymətləndirmişidir. N. Tusi belə hesab edir ki, "səhv tərbiyə olunmuş adam çətin ədəb öyrənərək, xüsusilə yaşı keçmiş olsa, lakin nöqsanını başa düşüb vərdişləri tərgitmək üsulunu bilsə, ona əməl etsə, səy göstərsə, xeyirxahlarla oturub-dursa, bəlkə bir şey çıxa".

Yeniyetmənin həmyaşıdları ilə ünsiyyətinin pozulması ona böyük zərbə vurur, eyni zamanda yoldaşının ona göstərilən soyuq münasibəti onun üçün ən ağır və dözülməz cəzaya çevrilir. Bu vəziyyət uzun müddət davam etdikdə təbiətcə ictimaiyyətçi olan yeniyetmə məktəbdən kənarda özünə yeni dəstələr və yoldaşlar axtarır, müxtəlif küçə qruplarına qoşulur və bəzən onda qeyri-əxlaqi, təcavüzkar əlamətlər formalaşır, eqoizm, lovğalıq kimi mənfi xüsusiyyətlər əmələ gəlir. Bu cür hallar isə yeniyetmə şəxsiyyətinin pozitiv istiqamətdə formalaşmasına mənfi təsir göstərir.

Tədqiqatlar göstərir ki, yeniyetmələr arasında yaxın insanlarla və həmyaşıdlarla olan

qeyri-sağlam münasibətlər xroniki distruss şəraiti yaradır, o da öz növbəsində insanın psixoloji və fiziki vəziyyətində əks olunur. Nəticədə yeniyetmələrin sağlamlığında dəyişikliklər yaranır və nevrozlara, gözlənilməz hallara, suisidə səbəb olur.

Son illərdə psixoloji araşdırmalar keçirən alimlər texnologiyanın sürətli inkişafı ilə əlaqədar insan psixikasının yeni bir xüsusiyyətini, "robot sindromu"nu aşkar etmişlər. Bu sindromun mahiyyətini o təşkil edir ki, insanlar texniki vasitələrdən, xüsusilə elektron oyunlardan, kriminal xarakterli filmlərdən geniş istifadə etdiklərinə görə artıq onlar hətta canlı insanlara belə, monitorlardakı oyunların döyüş səhnələrini əks etdirən cansız obrazlar kimi yanaşırlar. Nəticədə yeni tipli kriminal davranışlar formalaşır. Uzun müddət döyüş səhnələrini əks etdirən virtual oyunlarla gününü keçirən yeniyetmə çox asanlıqla hansısa insana fiziki xətər yetirə və hətta onu öldürə bilər.

Yuxarıda göstərilən neqativ halların azaldılması üçün isə valideynlər, müəllimlər və yaxın insanlar yeniyetmələrlə olan ünsiyyətlərinə yenidən baxmalıdırlar. Dediyimiz bu xoşagəlməz münasibətlərin qarşısını almaq və ən azından onların təsir imkanlarını azaltmaq üçün isə valideyn-yeniyetmə-məktəb qarşılıqlı əməkdaşlığına hazırkı vəziyyət üçün hiss olunacaq dərəcədə böyük ehtiyac var. Bu əməkdaşlıq olmadan müsbət tərbiyəvi təsirlərdən danışmaq mənasız ola bilər. Əks halda isə yeniyetmələrin insan münasibətlərinə olan yanaşmasında və yaranmış münaqişəli situasiyalarda destruktiv davranış formaları üstünlük təşkil edə bilər.

Yeniyetməlik yaş dövrünün "keçid", "böhranlı", "təhlükəli" olduğunu nəzərə alaraq onlarla tərbiyəvi iş prosesində xüsusi diqqətli olmaq lazımdır.

Beləliklə, yeniyetməlik yaş dövrünün emosional baxımdan həssas və böhranlı olduğunu və bu dövrdə aldığı psixoloji travmaların sonradan şüursuzluq zonasına daxil olaraq müxtəlif davranış pozuntularını yaratmasını nəzərə alaraq onlarla düzgün tərbiyə üsul və vasitələrindən istifadə olunmalıdır.

**Məqalənin aktuallığı.** Müasir zamanda respublikamızda yeniyetməlik yaşı dövründə deviant davranışın xüsusiyyətlərinin araşdırılması xüsusi aktuallıq kəsb edir.

**Mövzunun elmi yeniliyi.** Yeniyetmələrdə davranış pozuntuları, ona təsir edən sosial-psixoloji amillərin araşdırılması, onların aradan qaldırılması yollarının müəyyənləşdirilməsinə imkan verir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Tədqiqat psixologiya elmini nəzəri müddəalarla zənginləşdirilməsinə kömək edə bilər. Bu məqalədən ali məktəb tələbələri, məktəb psixoloqları, mütəxəssislər təcrübədə istifadə edə bilərlər.

## Ədəbiyyat

1. Əlizadə Ə.Ə. Uşaq və yeniyetmələrin cinsi tərbiyəsi. Psixoloji problemlər. Bakı: Maarif, 1986.
2. Əlizadə Ə.Ə. Uşaq və yeniyetmələr: seksual inkişafın psixopedaqogikası. Bakı: ADPU, 2009.
3. "Psixologiya". Seçidov S., Həmzəyev M. və b. redaktəsi ilə, Bakı, 2007.
4. Xacə Nəsrəddin Tusi. Əxlaqi-Nasiri. Bakı: Elm, 1989.
5. Mirzəyev R. Münasibətlər, konfliktlər və yeniyetmələr. B., 2018.
6. Шабанов С.Ф. Психология личности. Проблемы половых различий. Баку: АГПУ, 1992.
7. Бандура А. Подростковая агрессия. Изучение влияния воспитания и семейных

отношений. М.: Пресс, 1999.
8. Выготский А.С. Педагогическая психология. Под ред. В.В. Давыдова. М. Педагогика. Пресс, 2002.

**Р. Гасымова**

## Основные особенности девиантного поведения в подростковом возрасте и социально-психологические факторы, влияющие на поведенческие расстройства

## Резюме

В статье описываются особенности девиантного поведения в подростковом возрасте и социально-психологические факторы, влияющие на поведенческие расстройства Ю наблюдаемые в этот период.

Выявлено, что тревожные симптомы детей с поведенческими расстройствами проявляются в социальном, конфликтном и агрессивном поведении, деструктивных действиях, в отсутствии интереса к учебе и т. д.

В связи с данной проблемой исследованы работы, как психологов нашей страны, так и зарубежных стран.

**R. Gasimova**

## The basic features of the deviance of adulthood in the mid-throes and the social-psychological factor, the incitement to devastating offshore

## Summary

The article describes the excitability of the deviance of adulthood in the mid-throes and the socio-psychological factor, which has been observed in the observed overvalued period.

It has been suggested that the symptoms of childhood disorder develop in social, conflict, and aggressive behavior, destructive actions, absenteeism, and other issues.

There is a problematic research on how to deal with psychologists, as well as those of the world.

**Redaksiyaya daxil olub:** 19.11.2018